**Azərbaycan Respublikasının Təhsil Nazirliyi vakant dövlət qulluğu vəzifəsinin tutulması ilə bağlı müsahibə elan edir:**

**Müsahibədə barəsində müsahibə elan edilən vəzifənin təsnifatından ən çoxu iki təsnifat aşağı inzibati vəzifədə qulluq keçən və ixtisas dərəcəsinə malik olan Təhsil Nazirliyinin dövlət qulluqçuları iştirak edə bilərlər.**

Müsahibədə iştirak etmək üçün aşağıdakı sənədlər təqdim edilməlidir:

- ərizə (2 nömrəli əlavə)
- ağ fonda rəngli fotoşəkil 1 ədəd ( 3 x 4 sm ölçüdə)

Müsahibədə iştirak etmək üçün ərizələrin qəbulu 1 oktyabr 2010-cu il tarixdən 15 oktyabr 2010-cu il tarixdə saat 18:00-**dək Azərbaycan Respublikasının Təhsil Nazirliyinin Strateji təhlil, planlaşdırma və kadrların idarəolunması şöbəsi** tərəfindən aparılır. Ərizələr şəxsən (bazar ertəsi – cümə günləri saat 09:00-dan 13:00-dək və 14:00 dan 18:00-dək), yaxud poçt vasitəsilə təqdim edilə bilər.

**Müsahibə zamanı müsahibədə iştirak edən dövlət qulluqçusunun bilik səviyyəsi, peşə hazırlığı, ümumi dünyagörüşü, barəsin¬də müsahibə elan edilən vəzifə üçün zəruri olan şəxsi keyfiyyətləri yoxlanılmaqla müvafiq vəzifəyə uyğunluğu müəyyən edilir. Müsa¬hi¬bədə ixtisas dərəcəsi, attestasiyanın nəticələri, müvafiq vəzifənin tələblərinə uyğun olaraq təkrar hazırlıq keçirilməsi və ixtisasın artırılması da nəzərə alınır.**

Müsahibəyə dair ətraflı məlumat almaq üçün **Azərbaycan Respublikasının Təhsil Nazirliyinin Strateji təhlil, planlaşdırma və kadrların idarəolunması şöbəsinə** müraciət edilə bilər.

Telefonlar: 496-16-55, 496-35-00

**Dövlət orqanının adı:** Azərbaycan Respublikası Təhsil Nazirliyi

**Struktur bölmənin adı:** Strateji təhlil, planlaşdırma və kadrların idarəolunması şöbəsi

**Ştat vahidinin sayı:** 1

**İş yerinin ünvanı:** Bakı şəhəri, Nəimanov rayonu, Xətai prospekti 49

**İnzibati vəzifənin təsnifatı:** 6-cı təsnifat

**Vəzifə maaşı:** 495 manat

**Qulluq funksiyaları:**

- ixtisasartırma və yenidənhazırlanma təhsilində "Təhsil haqqında" Qanunun, dövlət təhsil proqram və standartlarının tətbiqinə nail olunması;

- ixtisasartırma və yenidənhazırlanma təhsilinin məzmununun daim təkmilləşdirilməsi və tədris prosesinə tətbiqi;
- ixtisasartırma və yenidənhazırlanma təhsili üzrə tədris plan və proqramlarının, tədris materiallarının hazırlanması;
- ixtisasartırma və yenidənhazırlanma təhsil pilləsi üzrə müvafiq normativ sənədlərin hazırlanması;
- ixtisasartırma və yenidənhazırlanma müəssisələrinin fəaliyyətinin əlaqələndirilməsi, tənzimlənməsi, onların nizamnamələrinin hazırlanması və müvafiq qaydada təsdiqi;
- təhsilin bütün pillələrini əhatə edən rəhbər və pedaqoji kadrların ixtisasının artırılması və yenidənhazırlanması üzrə fəaliyyət göstərən bütün strukturların fəaliyyətinin müasir tələblərə uyğun qurulmasının təşkili;
- ixtisasartırma və yenidənhazırlanma üzrə qabaqcıl beynəlxalq təcrübənin öyrənilməsi, təhlili, ümumiləşdirilməsi, tətbiqinə dair tövsiyə və təlimatların hazırlanması;
- kadrların ixtisasının artırılması və yenidən hazırlanması pilləsində fəaliyyətin effektivliyinə nail olunması və s.

**Vəzifənin tutulması şərtləri:**

*təhsil:* təhsilin təşkili və idarəolunması ixtisası, maarif ixtisas istiqaməti üzrə ali təhsil;

*iş stajı:* azı 3 il

*kompüter:* MS WINDOWS, MS OFFICE, INTERNET və s. (orta-yüksək səviyyədə);

*xarici dil:* rus dili (orta-yüksək səviyyədə), ingilis dili (orta-yüksək səviyyədə)